## Azərbaycanın dövlət müstəqilliyinin Naxçıvan təməli və dərsləri

Keçmiş SSRİ-nin ali rəhbərlərindən biri, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev sovet imeriyasının olimpindəki düşmən dairənin məkrli fitvası ilə istefaya məcbur ediləndən 4 il sonra Vətənin dar məqamında xalqının mübarizəsinə bacardığı köməyi göstərmək üçün 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməyə razılıq verdi.

"Çiyinimə avtomat salıb, Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda canımı qurban verməyə hazıram" məramı ilə siyasi fəaliyyətə qayıdan Ulu Öndər doğulub böyüdüyü Naxçıvan torpağında Azərbaycanın yaxınlaşan dövlət müstəqilliyinin əsaslarının formalaşdırılmasına rəhbərlik etdi. Bu tarixçə bir daha sübut etdi ki, böyük tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin bütün gedişləri və önəmli məqamları mənsub olduğu xalqın və ölkənin, hətta geniş mənada beynəlxalq münasibətlərin dəyişməsi və inkişaf etdirilməsi, yenidən qurulması ilə üzvi surətdə bağlı olur.

Ümummilli liderin blokada və işğal təhlükəsi şəraitində yaşayan Naxçıvanda siyasi fəaliyyətini davam etdirməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malikdir. Bu hadisəyə XX əsrin səksəninci illərinin sonu və doxsanıncı illərin başlanğıc dövrünün ictimai-siyasi proseslərinin müstəvisindən baxsaq, xalqımızın və ölkəmizin taleyi üçün tanınmış, təcrübəli və səriştəli siyasi liderin nə dərəcədə əhəmiyyətli olduğu qabarıq şəkildə nəzərə çarpar.

Keçən əsrin səksəninci illərinin ortalarından sonuna qədər bir-birini əvəz edən kommunist rəhbərləri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə rəhbərliyindən sonrakı dövrün boşluğunu doldurmaq gücündə ola bilməmişdilər. Doxsanıncı illərin əvvəllərində zamanın dalğasında romantik-idealist simalar kimi görünən AXC–Müsavat iqtidarının nümayəndələrinin isə nə siyasi təcrübəsi və səriştəsi, nə də normal idarəçilik qabiliyyətləri var idi. Sözün böyük mənasında, Azərbaycanın geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan güclü dövlət xadiminə ciddi ehtiyacı var idi. Nə kommunist rəhbərlərin arasında, nə də cəbhəçi bəylərin sıralarında mövcud tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, Sovet İttifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur görünmürdü. Vəziyyət isə çox mürəkkəb idi. Sovet dövlətinin dağılması nəticəsində digər keçmiş müttəfiq respublikalar kimi, bəzilərindən isə daha çox Azərbaycan Respublikası çoxcəhətli böhranın dərinləşməsi dövrünü yaşamaqda davam edirdi. Xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yaranmışdı.

Ara-sıra Azərbaycanın parçalanacağı, regionların müxtəlif ölkələr arasında bölüşdürüləcəyi barədə mülahizələr səslənməkdə idi. Üstəlik də çətin blokada şəraiti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında vəziyyəti daha da çətinləşdirmişdi. Bütün bunlar az imiş kimi, keçən əsrin səksəninci illərinin axırlarından etibarən Azərbaycan iqtidarındakı sol və sağ təmayüllü rəhbərlərin, demək olar ki, mütləq əksəriyyəti Naxçıvan Muxtar Respublikasına

ögey münasibət bəsləyirdi. Onlardan bəziləri Naxçıvanı "acı bağırsaq kimi kəsib atmaq", bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan tərəfdən də siyasi-hərbi təzyiqlər qüvvətlənməkdə davam edirdi.

Olduqca çətin, mürəkkəb və məsuliyyətli məqamda Heydər Əliyev kimi böyük və zəngin həyat və siyasət məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, taleyin hökmü ilə 22 iyul 1990-cı ildə Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə və Mirzə Fətəli Axundzadə adına Naxçıvan şəhər seçki dairəsindən Muxtar Respublikanın Ali Məclisinə deputat seçilməsi geniş mənada xalq arasında ölkənin gələcəyinə böyük ümid qığılcımları yaratmışdı.

Bu mənada, Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Artıq xalqımız əmin idi ki, ən azı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Bu hadisə o zamankı Dağlıq Qarabağ ətrafında torpaqların itirilməsi prosesinin tez-tez müşahidə olunduğu ağır bir vaxtda xalqda ölkənin ərazi bütövlüyünün bərpa olunacağına da böyük ümid yaratmışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin Sədrliyi ilə keçən iclaslarında ölkənin müxtəlifbölgələrindən gəlmiş rəsmi qurumların nümayəndələrinin, haqları tapdanmış sadə, zəhmətkeş insanların iştirak edib, özlərinin mövcud vəziyyətləri barəsində dəqiq məlumatlar verərək, çıxış yolları barədə məsləhətlər almaları, dəstək görmələri Ali Məclisi Azərbaycan xalqının ümid qapısına çevirmişdi. Bütövlükdə isə görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın əsl ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə Heydər Əliyevin iş otağında yanan sadə çıraqdan bütün Azərbaycana işıq düşürdü.

Faktiki olaraq 1991-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasında sovet hakimiyyəti idarəçiliyi yox kimi idi. Bir qədər əvvəl Naxçıvan MR Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək, bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması, sadəcə, redaktə xarakterli düzəliş deyildi. Bu, de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi.

Bundan başqa, Naxçıvan MR Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul

edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan Dövlət Bayrağı Ali Məclisin binası üzərində dalğalanmağa başlamışdı. Bütün bunlar yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, dönməz azərbaycançılıq idealının, qeyri-adi cəsarətinin və uzaqgörənliyinin sayəsində həyata keçirilə bilmişdi.

Bütün bunlar Sovet İttifaqı və respublika rəhbərlərini narahat etmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli iclasında qəbul edilmiş ciddi və mühüm siyasi qərarlardan sonra isə Azərbaycan Sovet Respublikasının rəhbərliyinin təzyiqi ilə muxtar respublikada siyasi rəhbərliyi həyata keçirən əsas qurum olan Naxçıvan Vilayət Partiya Komitəsi tədricən Ali Məclisin sessiyalarının keçirilməsinə mane olmağa çalışmış, təzyiqlər göstərmişdi. Bunun nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi bir müddətdən sonra, 1991-ci ilin avqust ayına qədər fəaliyyətini dayandırmalı olmuşdu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının gündəliyinə geniş mənada həmin tarixi mərhələnin ən aktual məsələləri, xüsusən də ölkə miqyaslı və o cümlədən, Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarət və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin muxtar respublikanın ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilməsini qətiyyətlə tələb edirdi. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan dayanmadan, gur səslə Heydər Əliyevin muxtar respublikanın ali qanunverici orqanının rəhbəri vəzifəsinə seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin deputat kimi də ictimai-siyasi proseslərdə özünün obyektiv sözünü demiş, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən, Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş, zəngin dövlətçilik fəaliyyətinə malik olan Heydər Əliyev xalqın qarşısına çıxaraq heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını dəfələrlə bildirmişdi.

Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da Ulu Öndər 4 dəfə çıxış edərək, namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdi. Onun həmin sessiyadakı çıxışları Heydər Əliyev dühasını daha dərindən anlamaq, bu görkəmli şəxsiyyətin böyüklüyünün miqyasını

bütün aydınlığı ilə, əyani şəkildə dərk etmək üçün mühüm siyasi əhəmiyyətə malikdir.

Fövqəladə sessiya Naxçıvan Muxtar Respublika Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli sessiya idi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə 3 sentyabr 1991-ci il tarixdə öz işinə başlayan sessiyanın iclasları 4 sentyabrdan sonra 5 gün ərzində davam etdirilmiş, iclaslarda ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan mühüm məsələlər geniş müzakirə edilərək tarixi əhəmiyyətə malik olan müvafiq qərarlar qəbul olunmuşdur.

Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan MR Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda, Heydər Əliyevin Sədrlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il sessiyası “Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında” məsələ müzakirə edərək, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumun fəaliyyəti dayandırılsın.

Bundan başqa, sessiyada Naxçıvan MR-də partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdi. Bunlar Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçilik uğrunda mübarizə hərəkatına böyük təkan verən tarixi qərarlardır. Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması, sadəcə, həmin tarixi günün faktı olaraq qalmır. İlk növbədə, 3 sentyabr 1991-ci il xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu, Azərbaycanda siyasi-tarixi gedişatın əsaslı dönüş məqamı idi.

Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 19 iyul 1991-ci ildə Kreml rəhbərliyinə rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından öz iradəsi ilə çıxmış Heydər Əliyev SSRİ tarixində ilk dəfə olaraq bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilmişdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Sədri olduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında XX əsr ərzində Azərbaycanın o vaxta qədərki tarixində birinci dəfə idi ki, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumu fəaliyyətə başlamışdı. Siyasi gedişatın ciddi dönüşünü şərtləndirən bu tarixi məqamlar ölkəmizi müstəqil dövlətçiliyə aparan çətin və

keşməkeşli yollara işıq salan, ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən mühüm hadisələrdir.

Buna baxmayaraq, Azərbaycan Sovet Respublikasının siyasi rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyev sədrliyi ilə qəbul edilmiş qərarların həyata keçirilməsinə mane olmaq üçün bütün vasitələrdən istifadə etmişdi. Bununla belə, həmin vaxt Azərbaycanda siyasi rəhbərlik dəyişilsə də, Naxçıvan Muxtar Respublikasına münasibət uzun müddət dəyişməz olaraq qalmışdı. Hətta Naxçıvan Muxtar Respublikasında 24 oktyabr 1991-ci il tarixdə Heydər Əliyevə qarşı Azərbaycan Xalq Cəbhəsi tərəfindən mərkəzdən idarə olunan çevriliş cəhdi də göstərmişdilər.

Lakin bütün təzyiqlərə baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyev dövlət çevrilişi cəhdinin qarşısını qətiyyətlə almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyətini dönmədən həyata keçirirərək, bu regionda ölkənin ərazi bütövlüyünü qoruyub saxlamış, muxtar respublikanı işğaldan xilas etmiş, regionda social-iqtisadi vəziyyəti böhran həddindən çıxarmış, çətin və mürəkkəb şəraitdə real inkişafa nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Ali Məclisin qəbul etdiyi qərarlar təkcə region üçün deyil, geniş mənada ölkə üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə etmişdir. Məsələn, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü hərbi-siyasi tədbirlər və qəbul etdiyi qərarlar sayəsində Sovet ordusu hissələri dinc yolla muxtar respublikanın ərazisindən çıxarılmışdır. glkənin bu regionunun xarici ölkələrlə olan sərhədlərini ilk dəfə olaraq Naxçıvanda yaradılmış milli ordunun əsgərləri qorumaq şərəfi qazandılar.

Həmin dövrdə Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası xaricdən böyük dəstək alan Ermənistanın işğalından xilas edilmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi haqqındakı 16 dekabr 1991-ci il tarixli dərin məzmunlu qərara da Heydər Əliyev imza atmışdır. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, bu ölkələrin rəhbərləri ilə apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı ağır böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynamışdır. Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında sosialist təsərrüfat sistemi və kollektiv mülkiyyət forması ləğv edilmiş, torpaq islahatları və özəlləşdirmə tədbirləri həyata keçirilmişdir. Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Naxçıvan Muxtar Respublikası ərazisindəki Sədərək-Dilucu – “Ümid körpüsü”nün 28 may 1992-ci ildə istifadəyə verilməsi ilə ölkələr arasında çoxcəhətli əlaqələrin yeni mərhələsi başlanmış, blokada şəraiti yumşaldılmışdır. Naxçıvan Muxtar Respublikası üçün mühüm həyati əhəmiyyət kəsb edən Naxçıvan Aeroportunun imkanlarının genişləndirilməsi və yenidən qurulması sahəsində tədbirlər həyata keçirilmişdi.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda ikən 21 noyabr 1992-ci ildə yaradılmış Yeni Azərbaycan Partiyası, məlum olduğu kimi, ölkənin sonrakı inkişafında mühüm tarixi rol oynamışdır. Çətin blokada şəraiti olmasına baxmayaraq, 12 noyabr 1992-ci il tarixdə Naxçıvan Dövlət 8niversitetinin 25 illik yubileyinin muxtar respublika səviyyəsində keçirilməsi, Ali Məclisin Sədri kimi Heydər Əliyevin yubiley mərasimində axıradək iştirak etməsi və dərinməzmunlu nitq söyləməsi 8lu öndərin həyatının bütün məqamlarında ziyalı faktoruna xüsusi diqqət göstərməsinin bariz nümunəsidir.

Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda dövlət müstəqilliyinin formalaşdırılmasının böyük məktəbinə çevrilmişdi. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsindəki yorulmaz və səmərəli fəaliyyətiilə çətin və mürəkkəb şəraitdə muxtar respublikanın Ermənistanın işğalından qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bərabər, həm də Azərbaycan miqyasında müstəqillik uğrunda mübarizənin qüvvətləndirilməsinə, ölkədə demokratik proseslərin inkişaf etdirilməsinə böyük təkan verilmişdir.

Heydər Əliyevin xalqın ardıcıl və təkidli tələbləri ilə 3 oktyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi və ölkə rəhbəri kimi fəaliyyət göstərdiyi tarixi mərhələ (1993–2003) ölkəmizdə dövlət müstəqilliyinin yaradılması, möhkəmləndirilməsi və gələcək inkişafın böyük təməllərinin formalaşdırılması epoxasıdır. Heydər Əliyev epoxası Azərbaycanın xilası və inkişafı dövrünün tarixi epoxasıdır. Heydər Əliyev yolu Azərbaycanı böyük gələcəyə aparan möhtəşəm magistraldır.

Bu, Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa doğru dönməz şəkildə istiqamət alan müqəddəs və əbədi yolun möhkəm bünövrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə Heydər Əliyev milli dövlətçilik təlimini yaradıcı şəkildə inkişaf etdirməklə və müasir dövrün meydana çıxardığı yeni əlavələrlə zənginləşdirməklə Qarabağda erməni işğalına son qoyaraq xalqımıza misilsiz böyük Zəfər qazandırmaqla, erməni separatçılarını təslim etdirərək ölkəmizin tam suverenliyinə nail olmaqla xalqımızın və dövlətimizin tarixində yeni bir tarixi epoxa yaratmağa nail olmuşdur.

Heydər Əliyev – İlham Əliyev epoxası Azərbaycanın çoxəsrlik inkişaf yolunun ən böyük tarixi mərhələsidir. Bu, özündəki bütün dövrlərin heç birində təkrarı, bənzəri olmayan, mahiyyətinə və əhəmiyyətinə görə əsrlərə bərabər olan misilsiz tarixi epoxadır. İlham Əliyev epoxası tam suverenlik qazanmış və ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycan Respublikasının və xalqımızın sabahkı daha parlaq həyatının və möhtəşəm uğurların tam təminatı epoxasıdır. Bu epoxa böyük uğurla özünün tarixi yolunu davam etdirməkdədir.

***İsa Həbibbəyli***

***AMEA-nın prezidenti, akademik***

***Xalq qəzeti.- 2023.- 18 noyabr, № 251.- S. 5.***

## İlham Əliyevin yeni Naxçıvan modeli

Şanlı zəfərimizin yaratdığı yeni reallıqlar fonunda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi inkişafında yeni tərəqqi dövrü yaşanmaqdadır. İqtisadi müstəqilliyini təmin edən tarixin ən qüdrətli Azərbaycanı həm işğaldan azad edilən ərazilərimizin quruculuğunu, həm də regionların yüksəlişi ilə bağlı Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət proqramlarını yalnız öz imkanları hesabına reallaşdırır.

### *Dövlət proqramı Naxçıvanın yüksəlişinə işıq saçan mayak olacaq*

Son 20 il ərzində regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində demək olar ki, bölgələrin siması dəyişib. Bu tərəqqi, innovativ inkişaf, əlbəttə ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, qədim tarixə malik Naxçıvan Muxtar Respublikasından da yan ötməyib. Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açıb. Hazırda bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib. Bu isə öz növbəsində, Naxçıvanın sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanması və icrasının davam etdirilməsi zərurəti yaradıb. Məhz bütün bunları nəzərə alan ən islahatçı Prezident, cənab İlham Əliyev iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam imzalayaraq müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirib.

Bu bir həqiqətdir ki, qədim yurdumuzun təqribən yarıməsrlik dövrü Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulub. Bu baxımdan sərəncamın məhz "Heydər Əliyev İli"ndə, həmçinin Milli Qurtuluş Günü ərəfəsində imzalanması da rəmzi əhəmiyyət daşıdı. Digər bir önəmli məqam isə sənədin Naxçıvan Muxtar Respublikasının 100 illiyi ərəfəsində hazırlanmasıdır. Heç təsadüfi deyil ki, muxtariyyətin 100 illik tədbirləri çərçivəsində Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvan amili xüsusi qeyd olunmalıdır. Muxtar respublikanın 50 illik dövrü Ümummilli Liderin siyasəti ilə formalaşıb.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın bütün regionları kimi, Naxçıvanın da inkişafını hər zaman xüsusi diqqətdə saxlayıb. İndi isə olduqca əhatəli və geniş spektrə malik dövlət proqramının hazırlanması Naxçıvanda iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsində, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasında, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsində mühüm rol oynayacaq.

Əminliklə söyləmək olar ki, bu sənəd Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoluna, Naxçıvanın yüksəlişinə işıq saçan mayak olacaq.

***Tənəzzüldən tərəqqiyə***

Tarixə qısa ekskurs etməklə Naxçıvanın tənəzzüldən yüksəliş dövrünə qədəm qoymasının heç də asan reallaşmadığına şahidlik etmiş olarıq. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi, fenomenallığı, qətiyyətli siyasəti sayəsində Naxçıvan çətinliklərdən, ağrılı-acılı günlərdən qurtula bilib. 90-cı illərin əvvəllərində gərgin və mürəkkəb şəraitdə olan muxtar respublika Ulu Öndərin misilsiz xidmətləri nəticəsində dirçələrək müasir inkişaf mərhələsinə qədəm qoyub.

Heydər Əliyev Naxçıvana gəldikdən sonra öncə əhalinin və ərazinin təhlükəsizliyini təmin etdi. Bunun ardınca isə mükəmməl uğurlu siyasəti ilə sosial-iqtisadi inkişafın strategiyasını müəyyənləşdirdi. Məhz Ümummilli Liderin düzgün siyasəti sayəsində Naxçıvanın inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr quruldu, sonrakı dövr üçün ölkəmizin bütün bölgələri kimi, Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırıldı.

Bir sözlə, Ulu Öndər müstəqil dövlət quruculuğunun ən mükəmməl nümunəsini Azərbaycan miqyasında başlatdı. Prezident İlham Əliyevin şəxsi nəzarəti altında isə Naxçıvan yüksəliş dövrünü yaşadı.

2022-ci il dekabrın 22-də dövlət başçısı Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin etdiyi Fuad Nəcəflini qəbul edərək ona müvafiq tapşırıqlarını verib. Qəbulda Prezidentin Naxçıvana göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub. Eyni zamanda qeyd olunub ki, hər il dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına böyük həcmdə dotasiya ayrılıb. Prezident tapşırıq verib ki, insanların qayğısına qalınması, korrupsiya və rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı ciddi səylər göstərilsin.

***Naxçıvanın yeni inkişafının yol xəritəsi***

Ölkəmizdə regionların, o cümlədən Naxçıvan iqtisadi rayonunun inkişafı uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Prezident İlham Əliyevin ölkəmizin inkişafı üçün qəbul etdiyi tarixi qərarlar və həyata keçirdiyi genişmiqyaslı islahatlar müstəqil dövlətimizin bütün istiqamətlər üzrə, hərtərəfli şəkildə inkişaf etdirilməsinə, xalqımızın sosial rifahının daha da yaxşılaşdırılmasına təminat verir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qeyd edildiyi kimi, bu strategiyanın həyata

keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri edib və Naxçıvanın tranzit potensialını genişləndirib. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvanla nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxıb. Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsinin, davamlılığının təmin edilməsi zəruridir. Bu isə Naxçıvanın sosial-iqtisadi inkişafı ilə əlaqədar mütəmadi olaraq, kompleks proqramların hazırlanaraq icra olunmasını nəzərdə tutur.

Prezidentin müəyyənləşdirdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" məhz yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə hazırlanıb. Dövlət proqramı Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Sənəddə Naxçıvanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib. Dövlət proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.

Naxçıvanın 5 illik inkişafı üzrə dövlət proqramı muxtar respublikanın Azərbaycanın ümumi inkişaf strategiyası ilə əlaqəli şəkildə yenidən qurulması və inkişaf etdirilməsinin strategiya və taktikasını özündə əks etdirən mühüm tarixi əhəmiyyətə malik dövlət sənədidir. Muxtar respublikanın hərtərəfli inkişafını təmin etmək məqsədini daşıyan dövlət proqramı ölkə üzrə müəyyən edilmiş davamlı prioritetlərə uyğun olaraq ölkəmizin 2030-cu il dayanıqlı inkişaf gündəliyinin hədəfləri ilə əlaqəli şəkildə hazırlanıb.

### *Dövlət proqramının məqsədi, 11 prioritet istiqaməti, əsas hədəflər*

Dövlət proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial- iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunub və dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası

planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılıb. Belə ki, Naxçıvan Muxtar Respublikasının iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcək.

Sənədin hədəf göstəriciləri isə dayanıqlı inkişafın təmin olunması, məşğulluq imkanlarının artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və ətraf mühitin mühafizəsinin təmin olunmasıdır.

Dövlət proqramının icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən tədbirlər planı da hazırlanıb. Tədbirlər planı 5 illik müddəti əhatə edir. Tədbirlər planına uyğun olaraq, 2023-2024-cü illər və 2025-2027-ci illər üçün təfsilatlı tədbirlər planı hazırlanacaq. Dövlət proqramının icrası tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr nəzərə alınmaqla monitorinq olunacaq. Bu göstəricilər müvafiq fəaliyyət istiqamətlərinin icra statusunu qiymətləndirməyə imkan verəcək. Dövlət proqramı üzrə monitorinq və qiymətləndirmə "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na əsasən həyata keçiriləcək.

Dövlət proqramının maliyyələşmə mənbələri də müəyyənləşdirilib. Belə ki, sənəd üzrə tədbirlərin icrası dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət-özəl tərəfdaşlığı nəticəsində formalaşan maliyyə vəsaiti, yerli və xarici investisiyalar, beynəlxalq təşkilatların, donorların və fondların vəsaiti, qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə özəl investisiyaların cəlb olunması təşviq ediləcək. Göründüyü kimi, dövlət başçısının Naxçıvanın qarşıdakı 5 ildəki yeni inkişafı ilə bağlı müəyyənləşdirdiyi mükəmməl sənəd muxtar respublikanın müasir strateji inkişaf konsepsiyasıdır.

Dövlət proqramında nəzərdə tutulan yeniliklərə nəzər yetirdikdə tam əsasla demək olar ki, mövcud çağırışlar Naxçıvanın daha da inkişafına və yüksəlişinə təkan olacaq. Sənədin məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu mühüm sənədin icrası nəticəsində Naxçıvanın hərtərəfli tərəqqisi düşmənin də bağrını yaracaq. Çünki layihələrin icrası nəticəsində ortaya müasir, yeni Naxçıvan çıxacaq.

Muxtar respublikanın müasir yol xəritəsi sayılan bu sənədin 11 prioritet istiqamət - əlverişli biznes mühitinin yaradılması, ticarətin inkişafı, elektrik enerjisi istehsalının və ixracının artırılması, ixracyönlü sənayenin inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının və emalının artırılması, turizmin inkişafı, infrastruktur təminatının daha da yaxşılaşdırılması, sosial sektorun inkişafı, insan kapitalının

inkişafı, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi - üzrə uğurlu icrası, əlbəttə ki, möhtəşəm nailiyyətlərin əldə edilməsini təmin edəcək və bununla da Naxçıvanın yeni yüksəliş erası başlayacaq.

***Muxtar respublikanın hərtərəfli yüksəlişinin təminatçısı***

Tarix sübut edir ki, Azərbaycanın regionlarının yüksəlişi məhz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişafa dair dövlət proqramlarının icrası ilə baş tutub. İqtisadi müstəqilliyini təmin edən ölkə kimi Azərbaycan heç bir sosial-iqtisadi layihəsini təxirə salmayıb. Regionların inkişafı isə hər zaman Prezidentin fəaliyyətinin prioriteti olub. Dövlət başçısı müəyyənləşdirdiyi dövlət proqramları ilə əlaqədar həyata keçirilən layihələrin icrası ilə bağlı şəxsən özü maraqlanıb və tapşırıqlarını, məsləhətlərini verib. Prezidentin Naxçıvanın inkişafına dair 5 illik dövlət proqramı da muxtar respublikanın hərtərəfli yüksəlişinə hesablanıb.

Məhz bu dövlət proqramına əsasən Naxçıvanda çox mühüm layihələr reallaşdırılacaq və muxtar respublikada yeni sosial-iqtisadi infrastrukturlar yaradılacaq. Dövlət proqramına əsasən, Naxçıvanda vergi güzəştləri tətbiq olunacaq azad iqtisadi zonanın yaradılması planlaşdırılır.

Ölkəmizdə ilk belə mərkəz Ələtdə yaradılıb. Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub. Bu ilin iyun ayının 9-da isə Prezident İlham Əliyevin iştirakı ilə iqtisadi zonanın birinci mərhələsinin açılış mərasimi olub. Ələt Azad İqtisadi Zonası cənab Prezidentin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməllərindəndir. Bu layihənin icrası nəticəsində Azərbaycana daha çox xarici investisiya cəlb olunacaq və yeni iş yerləri yaradılacaq. Naxçıvanda da azad iqtisadi zonanın yaradılması, əlbəttə ki, əcnəbi investorların diqqətini çəkəcək. Çünki dövlət proqramına əsasən, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar Naxçıvanda dəmiryol infrastrukturu da yenilənəcək. Malların rahat və etibarlı şəkildə, eyni zamanda dəhliz vasitəsilə qısa vaxtda ünvana çatdırılması iş adamlarının diqqətini çəkəcək.

Bundan başqa, "Nobel Energy" şirkəti Naxçıvanda 400 MVt gücündə günəş-elektrik stansiyası tikəcək. Burada hasil ediləcək elektrik enerjisi isə qismən Türkiyəyə ixrac olunacaq. Naxçıvanda yerləşəcək günəş-elektrik stansiyasının tikintisi hökumətin ölkə ərazisində "yaşıl enerji" zonaları yaratmaqla təmiz enerjinin təşviqi və karbon emissiyalarının azaldılması istiqamətində sistemli səylərinin bir hissəsi kimi həyata keçiriləcək.

Muxtar respublikada həmçinin ixracyönlü sənaye sahəsi, aqroparklar və sənaye parkları da yaradılacaq. Sənədə əsasən, sənaye parklarında istehsal olunan məhsulların xarici ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb

olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək. Bununla yanaşı, mövcud olan təbii ehtiyatlar və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndiriləcək. Ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialı, infrastruktur təminatı inkişaf etdiriləcək, aqroparkların yaradılması təşviq olunacaq. Bununla da kənd təsərrüfatının istehsal vasitələrinin təminat səviyyəsinin artırılması ilə müvafiq istehsal vasitələrinə əlçatanlıq səviyyəsi artırılacaq, fermerlərin bilik və bacarıqlarının artırılması məqsədilə məsləhət və təlim xidmətləri təşkil olunacaq.

**İlham Əliyev Naxçıvanı Avrasiyanın mühüm nəqliyyat habına çevirəcək**

Dövlət proqramında qeyd olunan digər mühüm məsələ Naxçıvanın təbii qazla təminatıdır. Sənədə əsasən, muxtar respublikanın təbii qazla təminatında risklərin azaldılması məqsədilə Türkiyədən təbii qaz nəqli üçün Naxçıvana boru kəməri çəkiləcək.

Bundan başqa, internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyin, dayanıqlılığın və xidmətlərin fasiləsizliyinin təmin edilməsi məqsədilə Naxçıvanda fiber-optik magistral şəbəkə Türkiyə ilə əlaqələndirilməklə yenilənəcək, əhalinin keyfiyyətli internet xidmətlərinə çıxışı asanlaşacaq, həmçinin mobil rabitənin inkişafı ilə bağlı tədbirlər həyata keçiriləcək.

Dövlət proqramına əsasən, Naxçıvanda şəhərlərin baş planları hazırlanacaq, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə müvafiq layihələr gerçəkləşdiriləcək, turizm atlası hazırlanacaq, ingilisdilli orta məktəb yaradılacaq, yeni internat məktəbi tikiləcək, müasir özəl təhsil və tibb müəssisələri açılacaq. Məqsəd əhalinin keyfiyyətli təhsil və tibb xidmətlərinə çıxışının yaxşılaşdırılmasıdır.

Göründüyü kimi, Naxçıvanın sosial-iqtisadi inkişafında inqilabi yeniliklər olacaq. Zəngəzur dəhlizinin açılmasından sonra Naxçıvanla Azərbaycan arasında yolun açılması isə o deməkdir ki, bir qərinəlik blokada şəraiti ləğv olunacaq. Bu dəhliz azad iqtisadi zonanın fəaliyyətinə müsbət impuls vermiş olacaq. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan Avropa və Asiyanı əlaqələndirən əsas nəqliyyat hablarından birinə çevriləcək. Bu isə Naxçıvanın qərbdən Türkiyədən keçməklə Avropa ilə, şərqdən isə İran-Türkmənistan yolu ilə Asiya ölkələri ilə əlaqələndirilməsini təmin edəcək.

Bundan başqa, Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin iqtisadi əlaqələrində də xüsusi canlanma olacaq. 14 il öncə, 2009-cu il oktyabr ayının 3-də Naxçıvanda imzalanan müqaviləyə əsasən yaradılan Türk Şurasının (indiki adı Türk Dövlətləri Təşkilatı) dost və qardaş dövlətlərinin ticarət əlaqələri Zəngəzur dəhlizi vasitəsilə daha da şaxələnəcək, genişlənəcək. Dövlət proqramında Azərbaycanın ayrı-ayrı regionlarından aşağıbüdcəli aviareyslərin təşkil edilməsinin də nəzərdə tutulması Naxçıvanın ölkəmizin digər bölgələri ilə əlaqələndirilməsinə əlverişli imkanlar açacaq.

Prezident İlham Əliyevin inkişaf konsepsiyasına uyğun hazırlanan yeni dövlət proqramının prioritetlərinə əsasən deyə bilərik ki, nəzərdə tutulan layihələrin icrası nəticəsində Naxçıvanın 30 illik blokadasına son qoyulacaq. Zəngəzur dəhlizinin açılması, azad iqtisadi zonanın yaradılması, Türkiyədən təbii qaz xəttinin çəkilməsi və digər inqilabi layihələrin icrası nəticəsində Naxçıvan nəinki blokada məngənəsindən çıxacaq, hətta ölkə və dünya iqtisadiyyatı şəbəkəsi ilə qovuşmaq imkanlarını əldə etməklə böyük dividendlər qazanacaq. Bütün bunlar həm də Naxçıvanın qeyri-neft sənayesinin inkişafına böyük təkan verəcək. Muxtar respublikada istehsal olunan sənaye məhsullarından duz, mineral sular, orqanik meyvə-tərəvəz məhsulları "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına çıxarılacaq.

Əminliklə deyə bilərik ki, Prezidentin müəyyənləşdirdiyi dövlət proqramı Naxçıvan Muxtar Respublikasının hərtərəfli tərəqqisinin, innovativ yüksəlişinin mükəmməl bazisi olacaq. Cənab İlham Əliyevin müəllifi olduğu yeni Naxçıvan modeli tezliklə qlobal miqyasda regional sosial-iqtisadi inkişafın və quruculuğun ən mükəmməl örnəklərindən biri kimi qəbul ediləcək.

***Səttar Möhbalıyev,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***
***Azərbaycan.- 2023.- 21 iyun.- S. 4.***

## Moskva və Qars beynəlxalq müqavilələri müstəvisində Naxçıvanın hüquqi statusu

2024-cü il fevralın 9-da çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Naxçıvan Muxtar Respublikasının yaranması ölkəmizin, eləcə də regionun tarixində son dərəcə mühüm siyasi-hüquqi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamda deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir."

Dünyanın siyasi xəritəsinə nəzər saldıqda aydın görmək olur ki, Naxçıvanın yerləşdiyi bölgə geosiyasi baxımdan mühüm siyasi-hüquqi dəyərə malikdir. Belə ki, bu tarixi ərazi bütün türk dünyasını bir-birinə bağlayan bir koridordur.

Məlumdur ki, dünya təcrübəsində muxrar qurumlar yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi təsnifatlarına bölünür. Naxçıvan Muxtar Respublikası əsas ərazisindən tam təcrid olunmuş "anklav" ərazi kimi geosiyasi səbəblərə görə meydana gəlmişdir. Belə coğrafi-siyasi əlamət tarixi zərurət kimi Naxçıvana muxtar qurum statusunun verilməsini labüd etmişdir. Təbii ki, Naxçıvan Muxtar Respublikasının muxtariyyəti birdən-birə yaranmamışdır. Onun hüquqi əsasları ilə yaranan məsələlər XX əsrin əvvəllərinə gedib çıxır. Həmin dövrdə Rusiya-Türkiyə-Ermənistan münasibətləri, Ermənistanın əsassız torpaq iddiaları belə bir muxtariyyətin yaranmasına həlledici təsir göstərmişdir.

Bu dövrdə imzalanmış iki beynəlxalq müqavilə Naxçıvanın muxtariyyət məsələsinin taleyini həll etmişdir. Bunlardan biri 1921-ci il 16 mart tarixli Moskva, digəri isə 1921-ci il 13 oktyabr tarixli Qars beynəlxalq müqaviləsidir.

İlk olaraq Naxçıvanın muxtar statusu 16 mart 1921-ci ildə Moskva şəhərində imzalanmış RSFSR ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında Moskva müqaviləsi ilə belə təsbit edilmişdi: "Razılığa gələn hər iki tərəf hazırkı müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir". "Naxçıvan ərazisi" adlı I (c) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi.

Bir qədər sonra, daha dəqiq desək, 1921-ci il oktyabrın 13-də bir tərəfdən Türkiyə Böyük Millət Məclisi hökuməti, digər tərəfdən Rusiya Sovet Fedarativ Sosialist Respublikasının iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR arasında Dostluq haqqında Qars müqaviləsi imza-landı. Bu müqavilə ilə Naxçıvan bölgəsinin statusu və sərhədləri bir daha təsbit edildi. Qars müqaviləsinin 1-ci maddəsində göstərilir ki, razılığa gələn tərəflər ərazi barədə əvvəlki müqavilələrin qüvvəsini itirmiş hesab edirlər. Bu maddə 16 mart 1921-ci ildə Moskvada bağlanmış Türkiyə-Rusiya müqaviləsinə şamil edilmir. Bununla da, Zaqafqaziya respublikaları bir-birinə qarşı ərazi iddiası ilə tələb qaldırmamağı və üçüncü bir ölkəyə də bu imkanı verməməyi öhdəsinə götürmüşlər. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Bu maddəyə görə Türkiyə Hökuməti ilə Ermənistan və Azərbaycan Sovet Hökumətləri bu Müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdırlar. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu.

Qars müqaviləsinin III əlavəsi "Naxçıvan ərazisi" başlığı adı altında verilir. Bu əlavədə Ermə-nistan SSR ilə Naxçıvan MSSR arasındakı sərhəd xəttinin keçdiyi əsas nöqtələr qeyd olunmuşdur.

Qars və Moskva beynəlxalq müqavilələri müddətsiz bağlanmışdır və imzalayan dövlətlərdən hər hansı biri bu müqavilələri təktərəfli qaydada qəti şəkildə ləğv edə bilməzdilər. Çünki "Müqavilələr hüququ haqqında" 1969-cu il tarixli Vyana Konvensiyasının 26-cı maddə-sində ("Pacta sunt servanda") qeyd olunur ki, "qüvvədə olan hər bir müqavilə onun iştrakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir". Konvensiyanın 27-ci maddəsinə əsasən isə "müqavilənin iştrakçısı öhdəliklərini yerinə yetirməyərkən özünə bəraət qazandırmaq üçün daxili qanunvericiliyə istinad edə bilməz...".

Moskva və Qars beynəlxalq müqavilələri Naxçıvan diyarının tarixi taleyini, yəni onun Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi qalmaq imkanlarını gerçəkləşdirdi. Bu müqavilələrlə Rusiya, Türkiyə və Cənubi Qafqaz respublikaları Naxçıvana Azərbayca-nın tərkibində muxtar qurum kimi tanınan beynəlxalq-hüquqi təminat vermişdir. Bu diyara muxtariyyət statusunun verilməsi ilə Azərbaycan SSR Naxçıvan üzərində yurisdiksiyasından irəli gələn vəzifələri həyata keçirirdi. Lakin təəssüf ki, Naxçıvanın Azərbaycan SSR-in tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadəkləngidildi. Həmin il fevralın 9-da isə Azərbaycan SSR MİK-in dekretinə əsasən Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-ə çevrildi. Bununla da qədim diyarın statusu qəti şəkildə müəyyən edildi. Bu baxımdan Moskva və Qars müqavilələri Azərbaycan üçün böyük siyasi-hüquqi əhəmiyyətə malik idi.

Sovetlər Birliyinin dağılması ərəfəsində yaranmış vəziyyətdən sui-istifadə edən Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları baş qaldıranda Naxçıvan Muxtar Respublikası da çətin sınaqlar qarşısında qaldı. Naxçıvanı Azərbaycanın

ərazisi ilə birləşdirən yollar bağlandığından bölgə blokada şəraitində yaşamağa başladı. Azərbaycanın o vaxtkı rəhbərliyinin muxtar respublikanın taleyinə laqeyd münasibəti vəziyyəti daha da çətinləşdirdi. 1990-cı ildə doğma vətəni Naxçıvana gələn Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu tarixi qayıdışı ilə ölkəmizin müstəqilliyi və suverenliyinin əbədiliyi üçün misilsiz tarixi xidmətlər göstərdi. Dahi rəhbər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqın gələcəyə ümidini özünə qaytardı. Ulu Öndər Heydər Əliyev Naxçıvan əhalisinin mübarizliyinə və əzmkarlığına arxalanaraq özünün diplomatik peşəkarlığı, müdrikliyi və uzaqgörən siyasəti sayəsində muxtar respublikanı ağır sınaqlardan üzü ağ çıxartdı. Nəticədə 1991-1993-cü illərdə xalqımızın əbədiyaşar xilaskarı Heydər Əliyev çətin və mürəkkəb mərhələlərdən keçən Naxçıvan diyarını Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qoruyub saxlamağı bacardı.

Dahi rəhbər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövr, eləcə də Azərbaycan Respublikasının Prezidenti olduğu illər Naxçıvanın muxtariyyət statusunun möhkəmlənməsində xüsusi əhəmiyyətə malikdir. 1990-cı ilin noyabr 17-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən 12-ci çağırış Naxçıvan MSSR Ali Məclisinin ilk sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyət orqan-ları haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqın-da" tarixi qərarlar qəbul olundu.

Hələ 1991-ci il yanvarın 11-də görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətləri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırdı. Eləcə də 1992-ci ilin mart ayında Türkiyə Respublikasının rəhbərliyi ilə görüşərək Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Cəsarətlə atılmış bu strateji əhəmiyyətli addımlar Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə müəyyən olunması faktını dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırmaq məqsədi daşıyırdı.

Qeyd etmək lazımdır ki, Moskva və Qars beynəlxalq müqavilələrinin hüquqi əhəmiyyəti son dövrlərdə yenidən gündəmə gətirilmişdir. Belə ki, 2012-ci il oktyabr ayı-nın sonunda Fransanın Strasburq şəhərində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən 1921-ci ildə imzalanmış Moskva və Qars beynəlxalq müqavilələri Avropa Şurasının sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir.

Göründüyü kimi, Naxçıvanın muxtariyyət statusu bölgənin tarixi taleyində hər zaman mühüm rol oynamışdır. Bu cəhətləri nəzərə alan görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev demişdir: "Naxçı-vanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın

əldən getmiş başqa torpaqlarının qayta-rılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Naxçıvanın muxtariyyət statusunun qorunması və möhkəmləndirilməsi strategiyası dahi rəhbər Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasə-tində xüsusi yer tutmuşdur. Bu baxımdan Ulu Öndərin siyasi fəaliyyəti muxtar respublikanı blokadadan çıxarmağa, qonşu dövlətlərlə sosial-iqtisadi və mədəni əlaqələri inki-şaf etdirməyə, onun ərazi bütövlüyünü qorumağa yönəlmişdi. Məhz Ümummilli Liderin tarixi xidmətləri nəticəsində Naxçıvanın muxtariyyət statusu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında və Naxçıvan Muxtar Respublikasının hazırda qüvvədə olan Konstitusiyasında öz əksini tapmışdır. Belə ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusi-yasında Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilməsinə dair ayrıca müddəalar nəzərdə tutulmuşdur. Eləcə də 1998-ci il dekabr 29-da qəbul olunan Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyanın 1-ci maddəsi ilə Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika kimi müəyyən edildi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, hazırda quruculuq yolunu seçən Naxçıvan Muxtar Respublikası bütün sahələrdə artıq rifaha və tərəqqiyə qovuşmuşdur. Müstəqil ölkəmizin ayrılmaz parçası olan Naxçıvanın zəngin quruculuq səhifələri böyük öndərimizin arzularının reallaşmasından xəbər verir. Bu gün muxtar respublikada qanunun aliliyinə əsaslanan müasir demokratik, hüquqi dövlət quruculuğu, aparılan uğurlu dövlət siyasəti, Naxçıvan Muxtar Respublikasının qonşu dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı bütövlükdə Azərbaycan dövlətçiliyinin inkişaf göstəriciləri kimi qəbul olunur. Təsadüfi deyil ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafında Naxçıvanın xüsusi yeri olduğunu dəfələrlə vurğulamışdır.

Hazırda muxtar respublikamızda həyata keçirilən çoxşaxəli islahatlar muxtar respublikamızda uğurla davam etdirilməkdədir.

Bu il 100 illik yubileyini qeyd edən Naxçıvan muxtariyyəti artıq tərəqqi və inkişafın ən yüksək zirvəsini yaşayır. İnanırıq ki, həyata keçirilən islahatlar müstəvəsində bu il Naxçıvanda hüquqi dövlət quruculuğu daha da genişlənəcək, sosial-iqtisadi sahələrdə inkişaf dinamikası sürətlənəcək, əhalinin rifah halı daha da yaxşılaşacaqdır.

***Yunis Xəlilov,***
***Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının baş müəllimi***